# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ

## ƏMR

**№ 45** **08.04.2011-ci il**

**"Respublikada immunlaşdırma həftəsinin keçirilməsi barədə"**

Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsu ilə 2011-ci ildə də Avropa regionunda immunlaşdırma həftəsinin keçirilməsi davam etdiriləcəkdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi bu tədbirdə qoşularaq, immunlaşdırma həftəsinin yüksək səviyyədə həyata keçirilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. 2011-ci ilin aprel ayının 25-dən - may ayının 1-nə kimi respublikanın bütün şəhər və rayonlarında immunlaşdırma həftəsi keçirilsin.

2. Respublikanın səhiyyə idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın:

2.1. hər hansı səbəblərə görə peyvəndlərdən kənarda qalmış uşaqlar immunlaşdırma həftəsi ərzində peyvəndə cəlb edilsinlər;

2.2. keçiriləcək immunlaşdırma həftəsi barədə səhiyyə işçiləri üçün (pediatrlar, nevropatoloqlar, ginekoloqlar) izahat işinin aparılması təmin edilsin;

2.3. immunlaşdırma tədbirlərinin nəticələri haqqında məlumatın əmrə əlavə olunmuş forma əsasında 10 may 2011-cu il tarixədək Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə verilməsi təmin edilsin.

3. Quba, Qusar, Xaşmaz rayonların mərkəzi xəstəxanalarının baş həkimlərinə tapşırılsın ki, 0-5 yaşınadək uşaqlar arasında poliomielitə qarşı OPV vaksini ilə 2 turdan ibarət əlavə immunlaşdırma keçirilsin (I tur- 25-30 aprel 2011-ci il, II tur- 23-28 may 2011 ci il).

4. İnnovasiya və Təchizat Mərkəzinin direktoru F.Əliyar-zadəyə tapşırılsın ki, poliomielitə qarşı əlavə immunlaşdırma tədbirlərinin keçirilməsi üçün nəzərdə tutulmuş vaksinlərin yerlərə çatdırılması təmin edilsin.

5. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova və Respublika Taun Əleyhinə Stansiyasının direktoru M.Qasımova tapşırılsın:

5.1. 2011-ci ilin aprel-may aylarında Lənkəran, Bərdə, Kürdəmir, Sabirabad, Şəki, Quba mərkəzi rayon xəstəxanalarının və Gəncə şəhər gigiyena və epidemiologiya mərkəzinin bazalarında əlavə 2-də göstərilən şəhər və rayonların pediatr, nevropatoloq, epidemioloq və dərmatoveneroloqlar üçün kəskin süst iflic, qızılca və məxmərək xəstəlikləri üzərində epidemioloji nəzarətin gücləndirilməsi mövzusunda Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə 2 günlük seminar məşğələlərinin keçirilməsi təmin edilsin;

5.2. seminarın keçirilməsi üçün müvafiq mütəxəssislərin ayrılmasını təmin edilsin.

6. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova tapşırılsın ki, immunlaşdırma tədbirlərinin yekun nəticələri haqqında məlumatın 20 may 2011-ci il tarixədək Səhiyyə Nazirliyinə təqdim olunması təmin edilsin.

7. Gəncə şəhər gigiyena və epidemiologiya mərkəzinin direktoru, Lənkəran, Bərdə, Kürdəmir, Sabirabad, Şəki, Quba mərkəzi rayon xəstəxanalarının baş həkimlərinə tapşırılsın ki, seminar məşğələrinin keçirilməsi üçün müvafiq şərait yaradılsın.

8. Tibbi yardımın təşkili şöbəsinin müdiri S.Əliyevə və Sanitariya-epidemioloji nəzarəti sektorunun müdiri V.Qasımova tapşırılsın ki, əlavə 2-də göstərilən vaxt müddətində müvafiq mütəxəssislərin seminarda iştirakı təmin edilsin.

9. Əmrin icrasına nəzarət Nazir müavinləri Abbas Vəlibəyova və Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
08 aprel 2011-ci il tarixli
45 №-li əmrinə əlavə 1

Şəhər/Rayon______________________

1. Rayon səviyyəsində immunlaşdırma həftəsinin hazırlıq işlərinin keçirilməsinə cəlb olunmuş tərəfdaşların siyahısı_________________________
_______________________________________________________________
_______________________________________________________________
__

2.Kütləvi informasiya vasitələrində aparılan tədbirlərin siyahısı____________
_______________________________________________________________
_______________________________________________________________

3.Seminarda iştirək edən mütəxəssislərinin sayı:

pediatrlar__________ epidemioloqlar_________

nevropatoloqlar____ dermatoveneroloqlar _____

4.İmmunlaşdırma həftəsində hər bir peyvəndə görə əhatə olunmuş uşaqlarm sayı:

BSJ___________________ OPV _________________
HepB__________________ AGDT ________________
QPM___________________ ADT__________________
Vitamin A _____________

5.Quba, Qusar və Xaçmaz rayonları üçün OPV vaksini ilə keçirilən tur barədə hesabat:

Yaşlar üzrə məqsədli qrupun sayı ______________________________________
_______________________________________________________________

Yaşlar üzrə əhatə olunan uşaqların sayı __________________________________
_______________________________________________________________

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
08 aprel 2011-ci il tarixli
45 №-li əmrinə əlavə 2

**Kəskin süst iflic, qızılca və məxmərək xəstəlikləri üzərində epidemioloji nəzarətin gücləndirilməsi mövzusunda seminarda iştirak edənlərin**

## Siyahısı

**Təlim günü:** saat 10:00-dan 17:00-dək

| **Seminarın keçirilən yer** | **İştirak edən rayonlar, şəhərlər və dəvət olunmuş mütəxəssislərin sayı** ( hər təlim günü) | **Tarix** | **İştirak edənlər mütəxəssislər** |
|---|---|---|---|
| Gəncə GEM | Gəncə- 10 nəfər<br>Ağstafa- 2 nəfər<br>Gədəbəy- 4nəfər<br>Qazax- 4 nəfər<br>Göy-göl- 2 nəfər<br>Şəmkir- 4 nəfər<br>Tovuz- 4 nəfər | 26-27 aprel | Pediatr<br>Epidemioloq<br>Nevropatoloq (yalnız 1-ci gün)<br>Dermatovenerolоq (yalnız 2-ci gün) |
| Bərdə MRX | Bərdə- 10 nəfər<br>Yevlax- 4 nəfər<br>Goranboy- 6 nəfər<br>Mingəçevir- 4 nəfər<br>Tər-tər- 4 nəfər<br>Naftalan - 2 nəfər | 28-29 aprel | Pediatr<br>Epidemioloq<br>Nevropatoloq (yalnız 1-ci gün)<br>Dermatovenerolоq (yalnız 2-ci gün) |
| Kürdəmir MRX | Kürdəmir- 10 nəfər<br>Agdaş- 4 nəfər<br>Ağsu- 4 nəfər<br>Göycay- 4 nəfər<br>Hacıqabul- 4 nəfər<br>Şamaxı- 4 nəfər | 03-04 may | Pediatr<br>Epidemioloq<br>Nevropatoloq (yalnız 1-ci gün)<br>Dermatovenerolоq (yalnız 2-ci gün) |
| Sabirabad MRX | Sabirabad- 10 nəfər<br>Ağcəbədi- 4 nəfər<br>Beylagan- 4 nəfər<br>İmişli- 4 nəfər<br>Saatlı- 4 nəfər<br>Şirvan- 4 nəfər | 05-06 may | Pediatr<br>Epidemioloq<br>Nevropatoloq (yalnız 1-ci gün)<br>Dermatovenerolоq (yalnız 2-ci gün) |
| Şəki MRX | Şəki- 7 nəfər<br>Balakən- 4 nəfər<br>Zaqatala- 4 nəfər<br>Qax- 4 nəfər<br>Qəbələ- 4 nəfər<br>İsmayıllı- 4 nəfər<br>Oguz- 3 nəfər | 11-12 may | Pediatr<br>Epidemioloq<br>Nevropatoloq (yalnız 1-ci gün)<br>Dermatovenerolоq (yalnız 2-ci gün) |

| | | | |
|---|---|---|---|
| Quba MRX | Quba- 7 nəfər<br>Qusar- 4 nəfər<br>Xaşmaz- 4 nəfər<br>Xızı- 2 nəfər<br>Şabran- 4 nəfər<br>Siyəzən- 4 nəfər | 17-18 may | Pediatr<br>Epidemioloq<br>Nevropatoloq (yalnız 1-ci gün)<br>Dermatovenerolog (yalnız 2-ci gün) |
| Lənkəran MRX | Lənkəran- 9 nəfər<br>Astara- 3 nəfər<br>Biləsuvar- 4 nəfər<br>Cəlilabad- 4 nəfər<br>Yardımlı- 3 nəfər<br>Lerik- 3 nəfər<br>Masallı- 4 nəfər | 24-25 may | Pediatr<br>Epidemioloq<br>Nevropatoloq (yalnız 1-ci gün)<br>Dermatovenerolog (yalnız 2-ci gün) |